

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 105 (21.766)

*3 iyun 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinin inzibati binası və təlim mərkəzi istifadəyə verilmişdir





Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş, xidmətin müvafiq strukturları üçün lazımi iş şəraiti yaradılmışdır. Bu sahədə görülən işlərin davamı olaraq iyunun 2-də Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinin inzibati binası və təlim mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-mayor Fazil Ələkbərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, şəxsi heyəti salamlamış, Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinə alınan yeni texniki avadanlıqlara baxmışdır.

İnzibati binaya baxış zamanı qeyd olunmuşdur ki, iki mərtəbədən ibarət olan binada xidmətin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılmış, iş otaqları müvafiq avadanlıqlar və texniki vasitələrlə təmin olunmuşdur. Təlim mərkəzində lazımi idman avadanlıqları və dəstləri ilə təmin olunmuş 2 idman zalı və yardımçı otaqlar istifadəyə verilmişdir.

Həyətdə də abadlıq işləri aparılmış, açıq idman qurğuları quraşdırılmış, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




## "Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri" adlı yeni dərs vəsaitinin təqdimat mərasimi keçirilib

***İyunun 2-də Naxçıvan Dövlət Universitetində "Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri" kitabının təqdimatı olub.***





Tədbiri giriş sözü ilə universitetin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Saleh Məhərrəmov açaraq bildirib ki, Naxçıvan Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbovun "Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri" adlı yeni dərs vəsaiti enerji təhlükəsizliyi məsələlərini formalaşdıran amillərin təhlili, enerji resurslarının nəqli sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq məsələlərinin izahı, eyni zamanda regional dövlətlərin enerji təhlükəsizliyinin hüquqi aspektləri baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru Yusif Hüseynov bildirib ki, bu gün təqdimatına yığışdığımız "Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri" adlı 264 səhifədən ibarət genişhəcmli monoqrafiya 1 giriş, 3 fəsil, 11 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş hissədə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun əsas yeni elmi və praktik əhəmiyyəti izah edilir. Monoqrafiyanın "Region dövlətlərinin enerji təhlükəsizliyi siyasəti və onun uzlaşdırılması üzrə əməkdaşlığın beynəlxalq-hüquqi formaları" adlanan I fəslində region dövlətlərinin enerji resurslarının beynəlxalq enerji təhlükəsizliyi üçün əhəmiyyəti, Xəzər regionu dövlətlərinin milli maraqları və beynəlxalq-hüquqi əməkdaşlığın xüsusiyyətləri, regional enerji təhlükəsizliyi üzrə əməkdaşlığın beynəlxalq-hüquqi prinsipləri, enerji təhlükəsizliyi sferasında region dövlətlərinin milli konsepsiyaları və onun qanunvericilik əsası məsələləri təhlil edilir. Monoqrafiyanın II fəsli isə "Regional energetika əməkdaşlığının həyata keçirilməsində Azərbaycan Respublikasının qanunvericiliyi" adlanır və 4 paraqrafdan ibarətdir. Bu fəsildə Azərbaycan Respublikasının energetika siyasəti və onun qanunvericilik əsası beynəlxalq-hüquqi əməkdaşlığın əsası kimi səciyyələndirilir, Azərbaycan Respublikasının energetika qanunvericiliyinin əsas xüsusiyyətləri, energetika sahəsində regional əməkdaşlığın beynəlxalq-hüquqi formaları tədqiqata cəlb olunur.

Qeyd olunub ki, monoqrafiyanın 3 yarımfəsildən ibarət III fəsli "Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətində Naxçıvan Muxtar Respublikasının yeri" adlanır. Burada Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyəti və onun energetika sisteminin hüquqi əsasları, elektrik enerjisinin nəqlində beynəlxalq-hüquqi əməkdaşlıq, təbii qazın nəqlində dövlətlərarası əməkdaşlığın beynəlxalq-hüquqi məsələləri araşdırılır. Monoqrafiyada həmçinin tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və ümumiləşdirmələr irəli sürülür, o cümlədən bunların beynəlxalq və dövlətdaxili normativ hüquq sistemi üçün nəzəri-praktik əhəmiyyəti qeyd olunur.




Bildirilib ki, monoqrafiyada müasir qloballaşan dünyada enerji resursları, xüsusən karbohidrogen ehtiyatlarına sahib olmaq, onların ixrac və idxalına nəzarət geosiyasi maraqların, dövlətlərarası əməkdaşlığın xüsusi diqqət mərkəzinə çəkilib. Monoqrafiyada bu istiqamətdə kompleks məsələlərin təhlili müəllifin yaradıcılığının əsas istiqamətini təşkil edir. Belə ki, mövzunun beynəlxalq-hüquqi aspektləri ilə yanaşı, onun milli-iqtisadi, sosial, insan təhlükəsizliyinin təminatı, həmçinin regionun sabit və davamlı inkişaf aspektləri də təhlil olunur. Bu sahədə investisiya problemlərinin mövcudluğu, enerji resurslarından istifadənin neqativ nəticələr doğura bilən tərəfləri, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın ön plana çəkilməsi, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayan hasilatçı və tranzit dövlətlərin statusuna dair kompleks məsələlər elmi cəhətdən əsaslandırılır. Belə enerji təhlükəsizliyi ilə bağlı münasibətlər tənzimetmə obyekti olaraq həm dövlətlərarası, həm də dövlətlə hüquqi və fiziki şəxslər arasında baş verən münasibətləri birləşdirir.

Yusif Hüseynov vurğulayıb ki, bütövlükdə monoqrafiyanın elmi yeniliyi enerji təminatına yaranan təhdidlərin qarşısının alınması üçün beynəlxalq hüququn norma və prinsiplərinin kompleks şəkildə analizində ifadə edilir. Monoqrafiyanın nəzəri-praktiki əhəmiyyəti ondan ibarətdir ki, müəllifin bəzi təklif və tövsiyələrindən Azərbaycan dövlətinin enerji təhlükəsizliyi

*Ardı 2-ci səhifədə*

əlaqələrində praktik tətbiq məqsədilə və Azərbaycan Respublikasının qanunvericiliyi üçün maraq kəsb edən beynəlxalq enerji münasibətləri ilə bağlı ayrı-ayrı beynəlxalq-regional-milli hüquqi aktların norma və müddəalarının implementasiyasında istifadə oluna bilər.

Naxçıvan Dövlət Universiteti Fiziki energetika kafedrasının müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Şəmsəddin Kazımov və universitetin Hüquq fənləri kafedrasının müəllimi Reyhan Sadiqova Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətinin energetika sisteminə təsiri və regional dövlətlərin enerji təhlükəsizliyinin hüquqi aspektləri mövzusunda çıxış ediblər. Çıxış edənlər monoqrafiyanın tədqiqatçı alimlər, müəllimlər və tələbələr üçün faydalı olacağını bildirərək müəllifi yeni nəşr münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Naxçıvan Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov yeni dərs vəsaitinin nəşrində əməyi olanlara minnətdarlığını bildirib.

Tədbirə Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

## GUAM ölkələrinin Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin 26-cı iclası keçirilib

***İyun ayının 2-də Naxçıvan şəhərində GUAM ölkələrinin Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin 26-cı iclası keçirilib.***



Naxçıvan Biznes Mərkəzində təşkil olunan tədbirdə GUAM Katibliyi proqramlarının əlaqələndiricisi Səbuhi Təmirov Ticarət və Nəqletməyə Yardım Layihəsi barədə ətraflı məlumat verib. Qeyd olunub ki, adıçəkilən layihə gömrük və sərhəd sahəsində fəaliyyətin təkmilləşdirilməsində və müasirləşdirilməsində etibarlı platformaya çevrilib. Layihə üzrə ardıcıl şəkildə görülən işlər indiyədək istər regional, istərsə də beynəlxalq miqyasda tərəqqiyə və təhlükəsizliyə mühüm töhfələr verib.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat olan GUAM-ın Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin növbəti iclasının Naxçıvanda keçirilməsinin əlamətdar hadisə olduğunu deyib. Naxçıvanın qədim tarixi, mədəniyyəti, coğrafi mövqeyi, ticarət əlaqələri, gömrük orqanlarının fəaliyyəti barədə məlumat verən komitə sədri müstəqillik illərində muxtar respublikada bütün sahələrdə intibaha, tərəqqiyə nail olunduğunu önə çəkib. Qeyd olunub ki, kənd təsərrüfatı və sənayenin dinamik inkişafı, xarici ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq, öz növbəsində, ticarət əlaqələrinin artmasına da münbit şərait yaradıb. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası ilə dünyanın 56 ölkəsi arasında əlaqələr qurulub.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı və makroiqtisadi göstəriciləri barədə məlumat verən iqtisadiyyat naziri Famil Seyidov Azərbaycan Respublikasının on iqtisadi rayonundan biri olan Naxçıvanın öz inkişaf səviyyəsinə görə ilk sıralarda olduğunu önə çəkib. Qeyd olunub ki, əgər 25 il bundan qabaq Naxçıvanda 40 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, indi onların sayı 442-yə çatıb. Muxtar respublikanın ixrac potensialı barədə danışan nazir Naxçıvan məhsullarının dünya bazarında öz keyfiyyəti, ekoloji cəhətdən təmizliyi və sağlamlığı ilə seçildiyini vurğulayıb.

Gürcüstan Respublikasının Gəlirlər Xidmətinin rəis müavini Vaxtanq Laşkaradze, Moldova Respublikası Maliyyə Nazirliyinin Menecment İdarəsinin Xarici Əlaqələr Menecmenti Şöbəsinin rəisi Dimitriy Volovey, Ukrayna Respublikası Dövlət Fiskal Xidməti yanında Beynəlxalq Məsələlər üzrə Məsləhət Şurasının üzvü Oleq Semeninko, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi İqbal Babayev Ticarət və Nəqletməyə Yardım Layihəsi çərçivəsində görülən işlərin üzv ölkələr arasındakı əlaqələrin inkişafına verdiyi töhfələrdən, gömrük nəzarəti və rəsmiləşdirilməsinin asanlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıblar. Qonaqlar görüşün yüksək səviyyədə təşkilinə görə minnətdarlıq ediblər.

GUAM ölkələrinin Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin 26-cı iclasının Protokolunu imzalayan tərəflər hava nəqliyyatında gömrük hüquqpozmalarına qarşı birgə mübarizə, üzv ölkələrin gömrük sərhədlərindən keçirilən mal və nəqliyyat vasitələri haqqında məlumatların əvvəlcədən ötürülməsi ilə məlumat mübadiləsinin həyata keçirilməsinin test rejimində davam etdirilməsi, mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi zamanı elektron imzanın qarşılıqlı tanınması və tətbiqi kimi məsələlərdə razılığa gəliblər. Tərəflər, ümumilikdə, 10-dan artıq məsələ ilə bağlı razılaşıblar.

İclasda Estoniya-Azərbaycan Ticarət Palatasının sədri Yana Krimpe mal və nəqliyyat vasitələrinin rəsmiləşməsi zamanı elektron imzaların qarşılıqlı tanınması, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşı Zaur Qardaşov Azərbaycan Rəqəmsal Ticarət Qovşağı layihəsi və ondan istifadə imkanları barədə təqdimatla çıxış ediblər.

İclasda Naxçıvanda fəaliyyət göstərən biznes subyektləri də iştirak edib. Muxtar respublikanın xarici iqtisadi fəaliyyət iştirakçıları GUAM-a üzv ölkələrlə ticarət əməliyyatları zamanı qarşıya çıxan çətinlikləri aidiyyəti üzrə gömrük xidməti nümayəndələrinin diqqətinə çatdırıblar.

GUAM ölkələrinin Ticarətə və Nəqletməyə Yardım Layihəsi üzrə Rəhbəredici Komitəsinin növbəti iclasının cari ilin ikinci yarısında Gürcüstanda keçirilməsi qərara alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Naxçıvanın istehsal, təhsil və mədəniyyət müəssisələri ilə tanışlıq Niderland səfirində xoş təəssüratlar yaradıb





***Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Onno Kervers Naxçıvana səfəri çərçivəsində muxtar respublikanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub, istehsal müəssisələri ilə maraqlanıb.***

Diplomat əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Dövlət Universiteti ilə tanış olan səfir ali təhsil ocağının Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri ilə görüşüb. Onno Kervers Niderland-Azərbaycan əlaqələrinə dair mühazirə oxuyub, tələbələri maraqlandıran sualları cavablandırıb.

Daha sonra səfir Naxçıvan Biznes Mərkəzinə gələrək muxtar respublikada istehsal edilən məhsullarla tanış olub.

Naxçıvan Avtomobil Zavodunun istehsal potensialı barədə maraqlanan Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirinə bildirilib ki, Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqların quraşdırıldığı zavodda “NAZ-Lifan” markalı avtomobillər istehsal edilir.

“Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətində qonağa burada istehsal olunan “Badamlı” mineral suyu haqqında məlumat verilib.

Naxçıvan Sənaye Kompleksinin ərazisinə gələn qonağın diqqətinə çatdırılıb ki, buradakı kompleksin ümumi sahəsi 9 hektardır və özündə 4 zavodu birləşdirir. Bunlar gips, gips lövhələr, əhəng və məsaməli beton istehsal edən müəssisələrdir.

Sonra Onno Kervers Naxçıvan Sement Zavoduna gəlib. Bildirilib ki, bu müəssisə 2011-ci ildən fəaliyyət göstərir. Gündəlik istehsal gücü 1200 ton olan zavodda müasir texnologiya əsasında ən yeni avadanlıqlar quraşdırılıb. Naxçıvan sementi ən yüksək texniki göstərici olan 42,5 indeksli marka ilə buraxılır və satış üçün Bakı şəhərinə, habelə Gürcüstana göndərilir.

Duzdağ Fizioterapiya Mərkəzində diplomat bu şəfa ocağının müalicə imkanları ilə maraqlanıb. Qeyd edilib ki, burada bronxial-astma xəstəliyindən əziyyət çəkən insanlar müalicə olunurlar. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən xəstələr buraya gələrək müalicə alırlar.

Səfirin ikinci günü Naxçıvan Dövlət Xalça Muzeyinə gələn səfir müxtəlif dövrlərə aid 3 mindən çox maddi-mədəniyyət nümunəsinin qorunub saxlandığı muzeydən xoş təəssüratlarla ayrılıb.

Qonaq “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq səfirdə böyük maraq doğurub. Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında da diplomata ətraflı məlumat verilib. Xan sarayında isə bildirilib ki, buradakı muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb.

Daha sonra Onno Kervers Heydər Əliyev Sarayında olub, Naxçıvan Dövlət Rəsm Qalereyasında nümayiş etdirilən əsərlərə baxıb.

Qonaq “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində eramızdan əvvəl V-VIII minilliklərə aid olan müxtəlif məişət əşyalarına, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatlarına, mis alətlərə, qəbirüstü abidələrə, silahlara, qiymətli eksponatlara da maraqla baxıb.

İyunun 2-də Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Onno Kerversin Naxçıvana səfəri başa çatıb.

✍ **Səbuhi HÜSEYNOV**

***Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi münasibətilə “Naxçıvanda İslam mədəniyyəti və gənclərdə tolerantlığın inkişaf etdirilməsi” mövzusunda seminar-treninq keçirilib.***

## Seminar-treninq keçirilib



“Naxçıvan” Universitetində keçirilən seminar-treninqi giriş sözü ilə ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru Əli Yusifov açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Ötən il noyabrın 25-də Təşkilat Komitəsinin ilk iclası keçirilib, hazırlıq işləri ilə bağlı müvafiq tapşırıqlar verilib.

Seminar-treninqdə “Təmiz Dünya” İctimai Birliyinin sədri Fizzə Məmmədovanın “Gənclərdə tolerantlığın formalaşdırılması”, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin “Naxçıvanda İslam mədəniyyəti tarixi”, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin əməkdaşı Bəhruz Gülmalıyevin “Naxçıvanda dini tolerantlıq və İslamda tolerantlıq məsələləri”, Naxçıvan “Biznes Təlim Akademiyası” MMC-nin təlimçisi, layihə rəhbəri Sevinc Cabbarovanın “Gənclərdə tolerantlığın inkişafı və təkmilləşdirilməsi” mövzularında məruzələri dinlənilib. Bildirilib ki, qədim Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi Naxçıvanın İslam dünyasındakı yerinin və nüfuzunun göstəricisidir. Naxçıvan İslam dünyasının mədəniyyət zənginliyinin rəmzi olan bir şəhərdir. Bunu şəhərimizin qədim tarixi və mədəniyyət abidələri bir daha sübut edir.

Vurğulanıb ki, Naxçıvan qədimliyinə, mədəni zənginliyinə, yerləşdiyi coğrafi mövqeyinə görə seçilir. Məhz bu səbəbdən Naxçıvan hər zaman diqqət mərkəzində olub. Bəşəriyyətin yenidən yaranış tarixini simvolizə edən Nuh Peyğəmbərin məzarüstü abidəsi, Möminə xatın türbəsi və bir çox abidələr məhz bu şəhərin qədimliyini göstərir. Bu siyahıya ulu əcdadlarımızın yaşam fəlsəfəsini özündə əks etdirən Gəmiqaya abidələrini, dünya arxeologiya elminə mühüm töhfələr vermək qüdrətində olan Qazma, Oğlanqala, Gilançay, Kültəpə arxeoloji abidələrini, saysız-hesabsız təbiət möcüzələrini əlavə etsək, dünya xəritəsində həcmcə kiçik bir ərazidə necə böyük bir potensialın toplandığının şahidi olarıq. Qeyd edək ki, müxtəlif tarixi dövrlərdəki ictimai-siyasi şərait Naxçıvanın kifayət qədər tanıdılmasına imkan verməyib. Yalnız Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra, daha dəqiqi, ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvanın yenidən öyrənilməsinə, tədqiq olunmasına, tanıdılmasına başlanılıb.

Bildirilib ki, milli ornamentləri və yüksək memarlıq xüsusiyyətləri ilə Naxçıvan abidələri bu gün nəinki İslam ölkələrindən, dünyanın dörd bir yanından gələn turistləri heyran etməkdədir. 1200-dən artıq tarixi abidəyə malik olan Naxçıvan özündə 57 dünya əhəmiyyətli abidəni hifz etməklə bəşər mədəniyyətini zənginləşdirir.

Multikulturalizmin əhəmiyyətindən danışan məruzəçilər diqqətə çatdırıblar ki, multikulturalizmin Azərbaycan modelinin dünya ölkələrinə nümunə kimi təqdimatı, milli dəyərlərinin gənclərə aşılanması və tolerantlığın əhəmiyyətinin təbliğ olunması vacib məsələlərdən biri kimi qarşıda durur.

Seminar-treninqin sonunda sertifikatlar təqdim olunub.

**Nuray ƏSGƏROVA**



*5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür*

# Naxçıvanda müasir meliorasiya və su təsərrüfatı sistemi qurulub

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 may tarixli Sərəncamına əsasən, hər il iyunun 5-i ölkəmizdə Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü kimi qeyd edilir.***

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə meliorasiya və su təsərrüfatı sahəsi böyük inkişaf yolu keçmiş, Azərbaycanda böyük su anbarları, hidroqovşaqlar, nasos stansiyaları tikilib istifadəyə verilmiş, suvarılan torpaqların sahəsi xeyli artmışdır. Ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında da yeni meliorasiya və irriqasiya sistemləri yaradılmış, Araz və Arpaçay kimi böyük su anbarları tikilmişdir. 1993-cü ildə ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə meliorasiya və su təsərrüfatı sistemində daha geniş islahatlar həyata keçirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə su təsərrüfatı və meliorasiya sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm dövlət proqramları təsdiq olunmuş, kənd təsərrüfatının inkişafı, meliorativ tədbirlərin genişləndirilməsinə diqqət artırılmışdır. Nəticədə, iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatı da özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Naxçıvan Muxtar Respublikasında da meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Son illər meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri, həmçinin içməli su təminatının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin fəaliyyəti üçün lazımi şərait yaradılmış, müasir texnikalar alınıb istifadəyə verilmiş, rayon suvarma sistemləri idarələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarına əsasən suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilir.

Muxtar respublikada mütərəqqi suvarma sistemlərinin qurulması diqqət mərkəzində saxlanılır. Su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, torpaq sahələrini yeni əkin dövriyyəsinə daxil etmək məqsədilə yeni qapalı suvarma şəbəkələri tikilir, drenaj xətləri çəkilir. Belə ki, Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalı üzərində Babək rayonunun Nehrəm kəndində 1170, Culfa rayonunun Bənəniyar kəndində 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar sahəni əhatə edən 241,5 kilometrlik qapalı suvarma şəbəkəsi tikilmiş, 77,5 kilometr məsafədə yeni drenaj xətti çəkilmiş, 6,5 kilometrlik kollektor bərpa olunmuşdur. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində isə 400 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsi bərpa olunmuş, Böyükdüz və Xok kəndlərini əhatə edən 117 hektar ərazidə yeni qapalı suvarma şəbəkəsi tikilmiş, nəticədə, su itkisinin qarşısı alınmış, suvarma suyundan səmərəli istifadə etmək üçün şərait yaradılmışdır. Hazırda bu işlərin davamı olaraq Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafına şərait yaradan əsas amillərdəndir. Son illər muxtar respublikada müasir irriqasiya sistemləri qurularaq istifadəyə verilir. Müasir suvarma texnologiyalarına üstünlük verilməsi nəticəsində torpaqların su təminatı yaxşılaşdırılır. Bütün bunlar, ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına xidmət edir. Həyata keçirilən meliorasiya və su təsərrüfatı tədbirləri yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına səbəb olmuşdur. Belə ki, Uzunoba Su Anbarında yenidənqurma işləri aparılmış, anbardan Kəngərli rayonuna 32,4 kilometr uzunluğunda boru xətti çəkilmiş, yeni nasos stansiyası tikilmiş, nəticədə, 5800 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq, su itkilərini aradan qaldırmaq üçün Araz çayındakı nasos stansiyasından 16,6 kilometr uzunluğunda yeni təzyiqli boru xətti çəkilmişdir. Sədərək rayonunda əkinəyararlı torpaqların dayanıqlı suvarma suyu ilə təmin olunması üçün tikilən yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi də yenidən əkin dövriyyəsinə qatılmışdır.



Suvarılan ərazilərin şoranlaşmasına yol verməmək üçün birinci növbədə şoranlaşmanı törədən səbəblərə qarşı tədbirlər görülmüş, əkin sahələrinə suvarma normalarına uyğun olaraq suvarma suyu verilmiş, filtrasiyanı azaltmaq üçün açıq və qapalı drenajlarda, kollektorlarda, kanal və arxlarda mütəmadi olaraq lildən təmizləmə və təmir işləri aparılmış, yeni açıq və qapalı drenajların tikintisi davam etdirilmişdir. Son illər 10 kilometr yeni açıq drenaj xətti, 3,48 kilometr qapalı drenaj xətti tikilmişdir. Ötən il muxtar respublika ərazisində 1627 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq meliorativ cəhətdən yaxşılaşdırılmışdır. Hazırda Babək rayonunun Hacıvar kəndi ərazisində qapalı drenaj xəttinin tikintisi davam edir.

Suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən geniş istifadə edilir. Bu səbəbdən də onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılır. Hazırda muxtar respublikanın şəhər və rayonlarında 332 kəhriz istismar olunur. Kəhrizlərin bərpa edilməsi su təchizatının yaxşılaşdırılması ilə yanaşı, həm də tariximizin və mədəni irsimizin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır.

Muxtar respublikada mexaniki suvarma üsulundan da geniş istifadə olunmaqdadır. İkinci suvarma mənbəyi kimi istifadə edilən 101 ədəd nasos stansiyası və 824 ədəd subartezian quyusu suvarma mövsümündə tam gücü ilə istismar olunur. Son illərdə torpaq sahələrinin suvarma suyuna olan təminatını yaxşılaşdırmaq üçün Sədərək rayonunda Şir arxı üzərində, Kəngərli rayonu ərazisində, Babək rayonu ərazisinin Aşağı Buzqov kəndində, Nehrəm kollektorunun üzərində, Badaşqan kəndində, Nehrəm arxı üzərində yeni nasos stansiyaları tikilmişdir.

Əkin sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə muxtar respublikanın çay və selovlarında selə qarşı istiqamətləndirici bənd salınır. Bu da torpaqların yuyulmasının və şoranlaşmasının qarşısını almaqla yanaşı, həm də torpaqların münbitliyinin qorunmasına imkan verir. Ötən dövrdə Araz çayı boyunca 54 kilometrdən artıq məsafədə sahilbərkitmə işləri aparılmışdır.

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri insanları sağlam və ekoloji cəhətdən təmiz içməli su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür. Naxçıvan şəhərində "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində həyata keçirilən tədbirlər bu mənada, mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksi, eləcə də Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi, Şahbuz və Culfa şəhərlərində içməli su və kanalizasiya sistemləri istifadəyə verilmişdir. Hazırda layihə üzrə Ordubad və Şərur rayonlarında içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması işləri davam edir.

Meliorasiya işlərinin yerinə yetirilməsində maşın-mexanizmlərin mühüm əhəmiyyəti vardır. Son illərdə komitəyə 32 müxtəlif təyinatlı maşın və mexanizm verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi bundan sonra da meliorasiya və irriqasiya sistemlərinin lazımi səviyyədə istismarının təşkili, suvarılan torpaqların meliorativ vəziyyəti və su təminatının yaxşılaşdırılması sahəsində fəaliyyətini davam etdirəcəkdir.***

*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti*

# Əmək potensialından səmərəli istifadə məşğulluğun təminatında əhəmiyyətli rol oynayır

Məlumdur ki, insan resursları iqtisadi inkişafda əhəmiyyətli rol oynayır. Bu resurslardan səmərəli istifadə olunması cəmiyyətin ümumi inkişafına və yoxsulluğun aradan qaldırılmasına imkan verən ən mühüm amillərdən biridir. Muxtar respublikamızda indiyədək həyata keçirilmiş sosial-iqtisadi tədbirlərin mahiyyətində bu amil diqqət mərkəzində saxlanıldığından qazanılmış müsbət nəticələrdə regionun əmək potensialından düzgün istifadə olunması da bir daha özünü göstərir.

Muxtar respublikada əmək bazarının tənzimlənməsində və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi və 2014-2015-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası mühüm rol oynayıb. Belə ki, 1996-cı ildən bu günə kimi muxtar respublikada 85 min 861 yeni iş yeri açılıb ki, bunun da 59 min 90-ı və ya 68,8 faizi daimi iş yerləridir. Əgər 1995-ci ilin sonuna məşğulluq xidmətlərində rəsmi işsiz statusu alanların sayı 5 min 211 nəfər təşkil edirdisə, hazırda bu göstərici sıfır səviyyəsinə endirilib, əmək bazarında sabitlik təmin olunub. Statistik nəticələrə nəzər salsaq, görərik ki, "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas yekunlarına görə bu dövrdə muxtar respublikada 22 min 296 yeni, o cümlədən 19 min 215 daimi iş yeri açılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası isə işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 6364 yeni iş yeri açılıb, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılıb, 5537 işaxtaran müəssisələrdə mövcud olan vakansiyalar üzrə işlə təmin edilib, 627 nəfər ictimai işlərə göndərilib, əmək bazarının tələbinə uyğun olaraq işaxtaranlar üçün təşkil olunan peşə kurslarına 7595 nəfər cəlb edilib. Həmin dövrdə sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu da diqqətdə saxlanılıb, 158 nəfər kvota yerlərinə, sağlamlıq imkanları məhdud 171 nəfər münasib işlərə göndərilib, məhdud fiziki imkanlı 161 nəfər peşə kurslarına cəlb edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin növbəti və daha uzun müddəti əhatə edən, 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə, işaxtaranların məşğulluğunun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə imkan verən və işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılmasına səbəb olan və qarşıdakı illərdə regionun məşğulluq strategiyasını müəyyənləşdirən mühüm dövlət sənədidir. Dövlət proqramında göstərilən istiqamətlərə nəzər yetirdikdə aydın olur ki, müasir mərhələdə dövlət məşğulluq siyasətinin davam etdirilməsinin əsas məqsədi əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin davamlılığının təmin edilməsi, əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması, işaxtaranlar üçün özünüməşğulluq imkanlarının artırılması, əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillərin aparılmasıdır. Peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi də əsas məqsədlərdəndir. Rəqəmlərə diqqət yetirsək görərik ki, ötən il qəbul edilmiş dövlət proqramının icrasının birinci ilində 2 min 818 yeni iş yeri açılıb ki, bunun da 98 faizi daimi iş yerləri olub.

Əmək bazarının tələblərinə uyğun olaraq ötən il ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində, ümumilikdə, 385 nəfər peşə kurslarına, 93 nəfər isə ixtisasartırma kurslarına cəlb edilib. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində ötən il 2956 nəfər müxtəlif peşələrə yiyələnib.

Muxtar respublikada həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də əmək yarmarkalarıdır. Yeni dövlət proqramının icrası çərçivəsində Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 2017-ci ilin aprel ayında muxtar respublikamızın bütün bölgələrində əmək yarmarkaları təşkil olunub. Bu məqsədlə muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda olan boş iş yerləri haqqında məlumatlar əldə edilərək məşğulluq mərkəzləri tərəfindən yarmarkaya çıxarılıb. Keçirilən əmək yarmarkalarına 125-i özəl sektor olmaqla, 229 idarə, müəssisə və təşkilatdan 1608 boş iş yeri təqdim edilib. Təqdim olunmuş iş yerlərindən 1305-i dövlət, 303-ü qeyri-dövlət müəssisələrinə aid olub.

Son nəticələrə görə, əmək yarmarkalarında 206 nəfər daimi işlə təmin edilib. 125 nəfər dövlət müəssisələrində, 81 nəfər isə özəl sektorda işə düzəlib. Onlardan 61 nəfəri 29 yaşadək gənclər, 5 nəfəri isə sağlamlıq imkanları məhdud şəxslərdir.

Keçirilən əmək yarmarkaları kurslarına 16 nəfər peşə hazırlığı kurslarına cəlb edilib ki, onlardan 14 nəfəri kənd xidmət mərkəzlərində işlə təmin olunmaq üçün kurslara göndərilib.

Mövcud dünya təcrübəsi sübut edir ki, sürətli tərəqqinin əsas elementlərindən biri əmək potensialından səmərəli istifadənin təşkil olunması, iqtisadi fəaliyyət üçün lazımi şəraitin yaradılması, işçi qüvvə əmsalının yüksək göstərici ilə ifadə olunmasıdır. Bu mənada, muxtar respublikamızda fərdi və ictimai tələblərin ödənilməsi ilə həyata keçirilən çeviklik, mobillik və rasionallıq kimi mühüm prinsipləri özündə ehtiva edən məşğulluq strategiyası əmək resurslarından səmərəli istifadə olunmasında önəmli rol oynayır.

Səbuhi HƏSƏNOV



# Salam, yaşıl şəhərim!

*(mənsur şeir)*

***Yağış yağır bu şəhərə aram-aram, çiskin-çiskin... Yağış yağır bu şəhərə damla-damla, zər-rin- zərrin...***

***Günəşin ilk ziyasında, buludların arasından doğan Günəş şüasında salam deyir bizə şəhər, salam deyir gen küçələr, xiyabanlar, bağ-bağçalar, uca sərvlər. Hər daşında tarix yatan bu şəhərin sabahı da, axşamı da bir əsrardı, bir sehrdi, keçmişimdən axıb gələn, coşqun sulu gur nəhrdi.***

***...Yağış yağır bu şəhərə aram-aram, çiskin-çiskin. Şeh bəzəkli gül-çiçəklər ətir verir bu şəhərə, parlaq Günəş işıq süzür büllur təki işıq saçan bu yerlərə. Qövsi-qüzeh rəng qatanda damlalara, doğan Günəş, gözəl şəhər salam deyir sabah erkən yola çıxan insanlara. Bu şəhərin çətirləri şux küknarlar, akasiyalar, dürlü-dürlü ağaclardı.***

***Salam, yaşıl şəhərim. Sən insanlara zövq verən, incə, zərif duyğular yaradan bu gözəlliklərinlə ən ülvi sözlərə layiqsən. Heçdən yaradılan bu yaşıl libasın indi insanlara həyat, nəfəslərə təravət verir. Vaxt gələcək, sən daha da gözəl, daha da yaşıl olacaqsan. Onda yenə deyəcəyəm: gələcəyin mübarək, aziz şəhərim!***

✍ **Səbuhi HÜSEYNOV**





## Naxçıvan torpağının dillərdə əzbər olan dadlı meyvəsi: *göycə*

***Yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan qədim diyarımız görünüşü və dadı ilə seçilən meyvələri ilə də fərqlənir. Bunlardan biri də alçanın yalnız muxtar respublikada yetişən göycə növüdür. Bu gün Naxçıvanda yetişən göycə ilə ölkəmizin digər bölgələrindəki eyni meyvələr arasında çox böyük fərq var. Naxçıvan göycəsi dadı və tamı ilə seçilir, görünüşü ilə insanı cəlb edir.***

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun elmi işçisi, aqrar elmlər doktoru Varis Quliyevin sözlərinə görə, Naxçıvan göycəsi hazırda Azərbaycanın digər bölgələrində, xüsusilə Abşeron və Gəncə-Qazax bölgələrində yayılsa da, həmin məhsulun biomorfoloji xüsusiyyətləri Naxçıvan düzənliyi ərazisində becərilən sort ilə eyni deyil.



Naxçıvan göycəsi becərildiyi ərazinin və faraş yeyildiyi məhsulun rənginə müvafiq olaraq adlandırılıb. “Göycə” sözü göyümtül mənasında olmaqla bərabər, yeni, təzə mənasını da ifadə edir. Bu meyvə yazda ilk yeyilən meyvə sortlarından biridir. Onu da qeyd edək ki, “göycə” sözü yalnız Naxçıvan dialektinə aiddir. Yəni göycənin vətəni Naxçıvan olduğu üçün bu söz bu bölgədən başqa heç bir yerdə işlədilmir və ədəbi dildə də rast gəlinmir. Hələ VII əsrə aid səyyahların xatirələrində Naxçıvan göycəsi haqqında məlumatlar vardır.

Göycə, adətən, calaq üsulu ilə çoxaldılır. Calaqaltı kimi çəyirdəkli meyvələrin tinglərindən istifadə edilir. Calaqetmədə almaxara (albuxara) ağacından istifadə etdikdə meyvələri nisbətən iri və şirin, badam ağacına calaq edildikdə isə ağacları uzunömürlü olur.

Naxçıvan göycəsinin ən çox düzənlik və orta dağlıq ərazilərdə becərildiyini vurğulayan AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun elmi işçisi qeyd edir ki, bu meyvə Naxçıvan şəhərində, Babək qəsəbəsində, Qaraçuq, Tumbul, Zeynəddin, Şıxmahmud və digər kəndlərdə daha tez ərsəyə gəlir. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyunun axırı, iyulun ortalarında tam yetişir. Meyvələri kürəşəkilli, üst və alt hissələrdən basıqdır, həmin nahiyələri bir şırım birləşdirir. Meyvələrinin qabığı qalındır, rəngi ilk vaxtlar göyümtül olur. Lətli hissə qalındır. Hər meyvədə bir ədəd kiçik çəyirdək olur. Məhsulu tam yetişdikdə isə lətli hissə daha çox sulanır, şirinləşir və rəngi saralır. Çoxillik ağaclar, adətən, 10-25 il normal məhsul verir. Hər bir ağacdan ildə, təqribən, 50 kiloqrama qədər məhsul toplanılır. Onu da qeyd edək ki, ağaclar 35 dərəcəyə qədər şaxtaya dözümlüdür.

Göycə toxumla çoxaldıla bilməz, çünki bu sortun toxumları təbii hibrid genotipinə malikdir. Toxumla çoxaldıqda genotipdəki irsi əlamətlər də parçalanma verir və nəticədə, yerli alça formaları meydana çıxır.

“Naxçıvan göycəsi çox məhsuldar sortdur. Məhsulu çox olanda meyvələri normal ölçüyə çata bilmir və parametrləri kiçilir. Ona görə də hər il ağaclar üzərində normal bar yükü saxlanılması məqsədəuyğundur”, – deyən Varis Quliyev bildirdi ki, Naxçıvan göycəsi normal aqrotexniki becərilmə şəraitində hər il yüksək məhsul vermək xüsusiyyətinə malikdir. Ən tez yeyilən meyvə sortudur. Məhsulu, adətən, meyvələri yumşalmağa başlayan dövrdən növrəst məhsul kimi yeyilməyə başlanılır. Meyvələri avqust ayının əvvəllərində tam yetişkənliyə çatanda daha çox sulanır, şirinləşir. Belə meyvələrdən göycə qurusu məhsulunun alınması üçün istifadə edilir. Xüsusi qaydada hazırlanan göycə qurusu xoşagələn əmtəə görünüşünə malik olmaqla, nisbətən şirindir. Qış dövrü xüsusi yeməklərin hazırlanmasında, kulinariya sahəsində qiymətli məhsul kimi göycə qurusundan geniş istifadə olunur.

Yuxarıda qeyd olunduğu kimi, bu meyvə Naxçıvanda qədimdən becərildiyindən ərazidə çoxlu variasiyaları meydana gəlib. Bu baxımdan göycə aborigen çəyirdəkli meyvə növlərinə aid edilir.

Bu meyvənin bioloji xüsusiyyətləri, becərilmə texnologiyası haqqında maraqlı məqamlara toxunan Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsinin müdiri Əsgər Həsənov qeyd etdi ki, vaxtilə əcdadlarımız meyvələrin tez yetişməsi üçün müxtəlif calaqlar ediblər və nəticədə, göycə yaranıb: “Göycə çox çınqıllı, daşlı və həddindən artıq bərk gilli torpaqları sevmir. Belə torpaqlarda göycə alçaya calanmalıdır. Yaxşı məhsul verməsi üçün göycə qüvvətli və yumşaq torpaqlara əkilməlidir. Torpaq qatı nazik olan, alt qatı çox bərk və hava keçirməyən torpaqlarda tez tələf olur. Şoran torpaqlarda müstəsna hallarda alça əmələ gəlir. Göycə, gavalı, alça və göyəm bitkilərinin yaxşı inkişaf etməsi üçün torpaqda 3-8 faizə qədər kirəcin (əhəngin) olması əhəmiyyətlidir. Belə torpaqlarda bitkinin inkişafı yüksək olmaqla bərabər, məhsul da çox olur. Göycə tinglərinin sayını çoxaltmaq üçün yalnız calaqlanmış pöhrələrdən və calaq üsulu ilə artırılmış ağaclardan istifadə edilir. Göycə bağlarının salınması üçün torpağın dərindən şumlanıb hazırlanması vacibdir. Çınqıllı yumşaq torpaqlarda dərin şuma ehtiyac yoxdur. Göycənin kökləri dayazda olduğundan, onlar torpağın üst qatlarından qidalanırlar. Bağlarda əsas diqqət torpağın üzvi gübrələrlə zənginləşdirilməsinə ayrılmalıdır”.

Bu gün Naxçıvan göycəsinin tanıdılması, brend məhsula çevrilməsi istiqamətində məqsədyönlü işlər görülür. Bu baxımdan ötən il keçirilən “Göycə” festivalı xüsusi əhəmiyyətə malikdir. Qeyd edək ki, həmin tədbir respublikamızın bir sıra nüfuzlu kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırıldı, sosial şəbəkələrdə çoxsaylı videogörüntülər, şəkillər paylaşıldı, respublikamızdan və xarici ölkələrdən olan sosial şəbəkə istifadəçiləri festivalda iştirak etmək arzularını ifadə etdilər. Bu, bir daha göstərir ki, ötən il keçirilən “Göycə” festivalı ictimaiyyətin böyük marağına səbəb oldu. Ona görə də bir çoxları bu gün keçiriləcək ənənəvi festivala həvəslə qatılacaqlar. Budəfəki tədbirdə ölkəmizin müxtəlif bölgələrindən və xaricdən gələcək çoxsaylı turistlərin də iştirak edəcəyi gözlənilir. Bu cür festivalların keçirilməsi regionda meyvəçiliyin inkişaf etdirilməsinin, genişləndirilməsinin, ümumiyyətlə, bağçılıq mədəniyyətinin dünya standartları səviyyəsinə yüksəldilməsinin bariz nümunəsidir.

✍ **Rauf KƏNGƏRLİ**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında keçirilən aksiyalar muxtar respublikanın bütün bölgələrini əhatə etməklə davam etdirilir.***

## “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında silsilə aksiyalar davam edir



Gənclərin iştirakı ilə Uzunoba Su Anbarı ətrafında “Hərəmiz bir ağac əkək” aksiyası keçirilib. Aksiyanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman, Təhsil nazirlikləri və Yeni Azərbaycan Partiyasının aid rayon təşkilatlarının Heydər Əliyev adına gənclər birlikləri təşkil edib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi muxtar respublikada diqqət mərkəzində saxlanılır. Ətraf mühit və təbii sərvətlərin qorunmasında ekoloji maarifləndirmənin mühüm rolu vardır. Ona görə də muxtar respublikada əhalinin, xüsusən də böyüməkdə olan nəslin ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəsildə ekoloji mədəniyyətin formalaşdırılması və onların ətraf mühitin birgə mühafizəsinə cəlb olunması diqqət mərkəzində saxlanılır, bu məqsədlə ardıcıl tədbirlər görülür.

Qeyd edilib ki, muxtar respublikanın coğrafi mövqeyi, relyefi, təbii iqlim və torpaq xüsusiyyətləri, su potensialı nəzərə alınaraq ən mühüm ekoloji tədbir kimi yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinə diqqət yetirilir, xüsusi mühafizə olunan təbiət əraziləri yaradılır.

Çıxışlardan sonra gənclər Uzunoba gölünün ətrafında hazırlanmış ərazidə meşə tingləri əkib, ağaclara qulluq göstərib, ərazini alaq otlarından təmizləyiblər.

Məlumat üçün bildirək ki, bu gün təhsil müəssisələrinin ətrafında “Yaşıllıqlara qulluq” aksiyaları keçiriləcək. Bundan başqa, aksiyanın sonu Naxçıvan Dövlət Universiteti ərazisində keçiriləcək. Burada, tullantıların yandırıldığı tonqalın ətrafında gənclərin əhaliyə müraciəti oxunacaq. İyunun 5-də isə Nəbatat bağında gənclərin iştirakı ilə “Ətraf mühiti necə qoruyuruq?” mövzusunda diskussiya və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Ətraf mühit və biz” mövzusunda gənclərin rəsm əsərlərindən ibarət sərgi-müsabiqə keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 457